## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

## Mingəçevir Dövlət Universiteti

## Beynəlxalq Əməkdaşlıq Ofisi

# Beynəlmiləlləşmə siyasəti

# 2025 - 2030

*Mingəçevir Dövlət Universiteti*

*Elmi Şurasının ___ 2024-cü il*

*tarixli qərarı ilə təsdiq edilmişdir.*

*(Protokol № ___ )*

# Mündəricat

1. Ümumi müddəalar........................................................3
2. BƏO haqqında ........................................................3
3. SWOT təhlil ........................................................4
4. Strateji hədəflər ........................................................5
5. Resusrlar ........................................................9
6. Monitorinq və qiymətləndirmə.......................................10
7. Nəticə ........................................................11
8. İstinadlar ........................................................12

## Ümumi müddəalar

Dünya təhsil məkanı qloballaşmanın təsiri altında köklü transformasiyalar yaşayır. Artıq universitetlər yalnız bilik mərkəzləri deyil, həm də mədəniyyətlərarası dialoqun, innovasiyanın və qlobal vətəndaşlığın formalaşdığı platformalardır. Müasir dövrdə universitetin uğuru, onun qlobal şəbəkələrə inteqrasiya olunma dərəcəsindən, müəllim və tələbələrinin transmilli təcrübələrindən və akademik məhsuldarlığın beynəlxalq təsirindən asılıdır. Mingəçevir Dövlət Universiteti (MDU) olaraq bu dəyişiklikləri anlamaq, təhlil etmək və onlara rəhbərlik etmək üçün strateji bir perspektivlə irəliləyirik.

Mingəçevir Dövlət Universiteti Azərbaycanın dinamik inkişaf edən şəhərlərindən birində yerləşməsinin üstünlüyünü istifadə edərək təhsil, elm və innovasiya sahələrində regionun lideri olmaq istəyir. Lakin bizim ambisiyalarımız yalnız milli səviyyədə deyil, həm də beynəlxalq miqyasdadır. Bu sənəd universitetimizin qlobal təhsil məkanında özünəməxsus yer tutması üçün bir yol xəritəsidir.

## BƏO haqqında

Öz fəaliyyətini Azərbaycan Respublikasının qanunvericiliyi və tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında həyata keçirən MDU-nun Beynəlxalq Əməkdaşlıq Ofisi (BƏO) xarici ölkə universitetləri ilə ikitərəfli əməkdaşlığı, beynəlxalq təhsil proqramlarında iştirakı, əcnəbi tələbələrin cəlb olunmasını, müvafiq beynəlxalq təşkilatlarla işbirliyini və digər istiqamətləri əhatə edir.

BƏO adı çəkilən istiqamətlərdə aparıcı rol oynayır və bu istiqamətdə bütün fakültələr və şöbələr ilə yaxından əməkdaşlıq edir. BƏO Erasmus+ və digər proqramların məlumat sessiyalarını, layihələrin idarə olunması və icrası istiqamətində müxtəlif təlim və seminarlar, həmçinin konfranslar təşkil və iştirak edir. Hazırda MDU-nun dünyanın bir sıra ölkələrində onlarla universitet ilə müxtəlif sahələrdə əməkdaşlıq əlaqələri mövcuddur. Bu əməkdaşlıqlar çərçivəsində tələbələrin və əməkdaşların mübadiləsi, birgə elmi layihələrin, ortaq proqramların, kursların və tədris planlarının hazırlanması həyata keçirilir.

| SWOT təhlil | |
|---|---|
| **Güclü tərəflər** | **Strateji Məkan:**<br>➢ Azərbaycanın sənaye və energetika mərkəzi olan Mingəçevir şəhərində yerləşməsi, təhsil-sənaye əməkdaşlığı üçün unikal imkanlar yaradır.<br>➢ Kür çayı və Mingəçevir SES kimi təbii və infrastruktur resurslara yaxınlıq, təcrübi tədqiqatlar üçün üstünlükdür.<br>**İxtisaslaşmış Proqramlar:**<br>➢ Mühəndislik, Energetika, Ekologiya kimi sahələrdə regionun tələbatına uyğun proqramlar.<br>**Beynəlxalq Əlaqələr:**<br>➢ Erasmus+ kimi proqramlarda aktiv iştirak.<br>➢ Türkiyə və Avropa universitetləri ilə ikitərəfli müqavilələr.<br>**Gənc və Dinamik Kollektiv:**<br>➢ Yeni yaranan universitetə xas olan dinamik inkişaf yönümlülük. |
| **Zəif cəhətlər** | **Maliyyə Asılılığı:**<br>➢ Büdcənin əsasən dövlət tərəfindən maliyyələşdirilməsi, xarici investisiyaların nisbətən zəif olması.<br>**Beynəlxalq Tanınma:**<br>➢ Qlobal reytinqlərdə (QS, THE) adının çəkilməməsi və məhdud tanınma.<br>**Akademik İnfrastruktur:**<br>➢ Laboratoriya avadanlıqlarının və kitabxana resurslarının müasir tələblərə uyğunlaşdırılmasında çətinliklər.<br>**Elmi İstehsal:**<br>➢ Beynəlxalq indekslərə daxil olan elmi nəşrlərin və sitatlaşma indeksinin nisbətən aşağı səviyyədə olması.<br>➢ Xarici dillərdə ali təhsil proqramlarının mövcud olmaması. |
| **İmkanlar** | **Regional Energetika və Texnologiya Həbləri:**<br>➢ Mingəçevirin energetika və sənaye potensialı ilə sinerji yaradan tədqiqat layihələri (yenilənəbilən enerji, smart şəbəkələr).<br>**Beynəlxalq Təqaüdlər və Qrantlar:**<br>➢ AB-nin “Erasmus+” proqramlarında iştirak.<br>**Türk Dövlətləri Təşkilatı (TDT) ilə Əməkdaşlıq:**<br>➢ Türkdilli ölkələrlə tələbə və müəllim mübadiləsi və birgə tədqiqatlar. |

| | |
|---|---|
| **Təhdidlər** | **Rəqabət:**<br>➢ Paytaxt universitetləri ilə rəqabət.<br>**Sosial və iqtisadi çətinliklər**:<br>➢ Bölgədəki sosial və iqtisadi məsələlər tələbələrin universitetə daxil olma və təhsil alma imkanlarını məhdudlaşdıra bilər.<br>**Mütəxəssis çatışmazlığı:**<br>➢ Regiondakı sosial həyat və infrastruktur məhdudluğundan mütəxəssislərin cəlb edilməsində çətinlik.<br>**Təhsil Trendlərinin Dəyişməsi:**<br>➢ Sürətlə dəyişən texnoloji tələblərə uyğun proqramların vaxtında yenilənməmə riski. |

## STRATEJİ HƏDƏFLƏR:

Azərbaycanın təhsil ənənələrinə malik universitetlərindən biri olan Mingəçevir Dövlət Universitetində beynəlmiləlləşmə sahəsində bir sıra işlər həyata keçirilmiş, 2024-cü ildə beynəlmiləlləşmə siyasəti sənədi universitetin yeni redaksiyada təsdiq edilən inkişaf strategiyasına uyğunlaşdırılaraq təqdim edilmişdir. Beynəlmiləlləşmə fəaliyyətinin hədəf və məqsədləri universitetin beynəlmiləlləşmə siyasətində və fəaliyyət planında əks olunub. Universitet beynəlmiləlləşməyə dair yol xəritəsinin planlaşdırılmasında sadalananları prioritet hesab edir.

Məhz bu kontekstdə, MDU-nun beynəlmiləlləşmə strategiyası dörd əsas sütun üzərində qurulur:

1. **Akademik mübadilənin gücləndirilməsi**– Tələbə və müəllimlərin transmilli təcrübələr vasitəsilə "təhsil diplomatiyası"nı inkişaf etdirməsi.
2. **Tədqiqatın qloballaşması** – Dünya problemlərinə həll yaradan və dayanıqlı inkişafı təşviq edən layihələr.
3. **Mədəni müxtəlifliyin təşviqi** – Təlim proqramlarında çoxdilli və çoxmədəni təlimat metodologiyalarının inteqrasiyası.
4. **İnnovativ tərəfdaşlıqlar** – Sənaye, dövlət və qeyri-hökumət təşkilatları ilə sinerji yaradan beynəlxalq platformalar.

Mingəçevir Dövlət Universitetinin Beynəlmiləlləşmə sənədi aşağıdakı strateji hədəfləri özündə əks etdirir:

**Potensialın inkişafını və akademik mübadiləni dəstəkləyən beynəlxalq mübadilə proqramlarında iştirakı təmin etmək:**

- Uyğun fəaliyyət istiqamətlərinə malik nüfuzlu xarici universitetlərlə ikitərəfli əməkdaşlıq əlqələrinin qurulmasına nail olmaq.
- Koordinator və tərəfdaş qismində beynəlxalq proqram və layihələrdə iştirak etmək və bu istiqamətdə fəaliyyətləri genişləndirmək.
- Beynəlxalq mübadilənin təmin olunması məqsədilə təhsil alanların və əməkdaşların xarici dil biliklərini inkişaf etdirmək üçün müvafiq imkanlar yaratmaq.
- Beynəlxalq əməkdaşlıq ofisinin strukturunu və fəaliyyətini müasir tələblərə uyğun təkmilləşdirmək.
- Tələbələr və müəllimlər üçün mübadilə proqramları haqqında məlumatlandırıcı seminarların, vebinarların və tanıtım tədbirlərinin təşkilinə nail olmaq.

**Beynəlxalq təhsil şəbəkəsinə qoşulmağın təmin edilməsi:**

- Beynəlxalq və regional universitet birliklərində təmsil olunmaq və universitetlərarası çoxtərəfli beynəlxalq əməkdaşlıq mexanizmlərindən faydalanmaq.
- Universitetdə çoxmədəniyyətli və çoxdilli mühitin formalaşdırılması üçün şərait yaratmaq.

**Əcnəbi tələbələrin cəlb olunmasını təmin etmək:**

- Mübadilə proqramları vasitəsilə əcnəbi tələbələrin cəlb edilməsinin təşviqi üçün müvafiq imkanları təmin etmək.
- Əcnəbi tələbələrin qəbulu ofisini yaratmaq və bu prosesi əlçatan etmək üçün təlimat və məsləhət xidmətlərinin fəaliyyətini təkmilləşdirmək.
- İngilis, rus və türk dillərində ali təhsil proqramları təsis etmək və sayını davamlı artırmaq.
- Beynəlxalq vasitəçi təhsil şirkətləri ilə effektiv və səmərəli əlaqələr qurmaq.

- Əcnəbi tələbələrin tədris dili və müvafiq ixtisas bilikləri üzrə hazırlığını həyata keçirmək.

**Akademik heyətin beynəlxalq tərəfdaşlarla birgə əməkdaşlığı:**

- Uyğun fəaliyyət istiqamətlərinə malik nüfuzlu xarici universitetlərlə ikitərəfli əməkdaşlıq əlaqələri qurmaqla tədqiqatçıların birgə fəaliyyətinə şərait yaratmaq.
- Universitetin əməkdaşlarında ingilis dilində məqalə yazmaq bacarıqlarının inkişaf etdirilməsi, bu məqsədlə akademik səviyyəli intensiv ingilis dili kurslarının təşkil edilməsini (universitetdaxili və ya kənardakı kurslardan istifadə etməklə) təmin etmək.

**Birgə tədqiqatlar aparmaq üçün beynəlxalq tədqiqatçılar ilə əlaqələrin qurulması:**

- Birgə tədqiqat işlərinin aparılıması, tədqiqat şəbəkəsinin genişləndirilməsi məqsədilə nüfuzlu xarici ali təhsil müəssisələri ilə əməkdaşlıqlar qurmaq üçün fakultə və kafedralara bu sahədə dəstək göstərmək.
- Elmi tədqiqatların və elmi məqalələrin nüfuzlu beynəlxalq elmi jurnallarda dərcini təşviq etmək.
- Universitetdə birgə beynəlxalq elmi konfransların və tədbirlərin keçirilməsinə dəstək göstərmək.

**Beynəlxalq akademik heyətin universitetin akademik fəaliyyətinə cəlb olunmasını təmin etmək:**

- Təcrübəli xarici professor – müəllim heyətinin universitetdə pedoqoji fəaliyyətə cəlb etmək.
- Beynəlxalq mübadilə proqramları və universitetlərarası müqavilələr vasitəsilə xarici professor-müəllimlər cəlb etmək.
- Beynəlxalq təcrübə əsasında akademik imkanların artırılması.

**Universitetin beynəlxalq platformada imicini yüksəltmək və beynəlxalq rəqabəti artırmaqla nüfuzlu reytinqlərdə mövqeyini davamlı yaxşılaşdırmaq:**

- Universitetin beynəlxalq təbliği istiqamətində tədbirləri gücləndirmək (beynəlxalq təhsil yarmarkaları və sərgilərdə fəal iştirak etmək, beynəlxalq platformalarda tanıtım materiallarının yayımını genişləndirmək və s.)
- Universiteti qabaqcıl beynəlxalq təcrübəyə uyğun şəkildə rebrendinq etmək, loqosunu və korporativ stilini yeniləmək və bu istiqamətdə geniş təbliğat işləri həyata keçirmək.
- Nüfuzlu beynəlxalq reytinqlərdə (QS, Times Higher Education, Webometrics, GreenMetric və s.) iştirak etmək, bununla bağlı təcrübənin öyrənilməsi məqsədilə əməkdaşları müvafiq təlimlərə və seminarlara cəlb etmək.
- Nüfuzlu beynəlxalq reytinq təşkilatları ilə əməkdaşlıq etmək və onların tələblərini universitet idarəçiliyində nəzərə almaq.
- Universitetin nüfuzlu beynəlxalq reytinqlərdə nəzərə alınan göstəricilərinin davamlı yaxşılaşdırılması istiqamətində fəaliyyətlər həyata keçirmək.

**Beynəlxalq ikili diplom proqramlarında iştirak etmək:**

- Nüfuzlu xarici universitetlərdə  əməkdaşlıq müqavilələrində ikili diplom proqramlarının yaradılması məsələsinə xüsusi önəm vermək.
- İkili diplom proqramlarının yaradılması ilə bağlı qabaqcıl yerli və xarici təcrübəni öyrənmək.
- Bakalavriat və magistratura səviyyələrində beynəlxalq akkreditasiyadan keçmiş ali təhsil proqramları üzrə ikili diplom proqramları təsis etmək.

## Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar:

### İnsan resursları:

- Beynəlmiləlləşmə siyasətinin icrası üzrə ən əsas insan resursu Beynəlxalq əməkdaşlıq ofisinin əməkdaşları.
- Təcrübə və karyera inkişaf mərkəzi ilə xaricdə istehsalat təcrübəsinin keçirilməsi üzrə əməkdaşlıq.
- Keyfiyyət təminatı və davaml inkişaf şöbəsi ilə monitorinq və qiymətləndirmə göstəriciləri üzrə əməkdaşlıq.
- Mühasibatlıq ilə maliyyə resursları üzrə əməkdaşlıq.
- Elm və innovasiyalar şöbəsi ilə beynəlxalq tədqiqatçıların fəaliyyətinin tənzimlənməsi üzrə əməkdaşlıq.
- Tədris şöbəsi və müvafiq kafedralar ilə beynəlxalq mübadilə və ikitərəfli əməkdaşlıq layihələri çərçivəsində əməkdaşlıq.
- İnformasiya texnologiyaları mərkəzi ilə elanlar, pres-reliz və sosial media yayımlanmaları üzrə əməkdaşlıq.
- Xarici dillər və digər müvafiq kafedra müdirləri ilə əməkdaşlıq.
- TGT-nın sədri ilə tələbələrin mübadilə proqramlarında fəal iştirakı üzrə əməkdaşlıq.
- Maraqlı tərəflərlə beynəlxalq layihələr çərçivəsində əməkdaşlıq

### Maliyyə resursları:

***MDU maliyyə vəsaiti hesabına:***

- Beynəlxalq və yerli işgüzar səfərlər zamanı akademik və inzibati heyət üzrə ezamiyyə xərcləri.
- Yerli və beynəlxalq sərgi, tədbir və konfransların təşkili zamanı maliyyə xərcləri.
- Beynəlxalq tədbir və konfranslar zamanı dəvət olunan nümayəndələrin və dəvət yeməklərinin müvafiq maliyyə xərcləri.

***Avropa Birliyi maliyyə vəsaiti hesabına:***

- Akademik və inzibati heyət üzrə günlük ezamiyyə və nəqliyyat xərcləri.
- Mübadilə tələbələrinə təqaüd və nəqliyyat xərcləri.
- Beynəlxalq layihələr zaman səfər və işçi heyəti üzrə maliyyə xərcləri.

## İnfrastruktur resursları:

- Tədbirlərin və görüşlərin keçirilməsi üzrə iclas otağı və akt zalı.
- Beynəlxalq təcrübələrin keçirilməsi üzrə laboratoriya
- Müəllim və tələbə heyətinin beynəlxalq layihələrdə iştirakını təmin etmək üçün lazım olan resurslarla təmin edilmiş kitabxana

# Monitorinq və qiymətləndirmə

**Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların mütəmadi olaraq monitorinqi və qiymətləndirilməsi:**

- Universitetin Elmi Şurası qarşısında hesabatlılıq.
- İllik iş planlarının tərtibi və nəticəyönümlü hesabatlılıq.
- Rüblük hesabatlar.
- Elm və Təhsil Nazirliyinə təqdim olunan hesabatlar.

# NƏTİCƏ:

Mingəçevir Dövlət Universiteti beynəlmiləlləşmə siyasəti vasitəsilə yalnız ölkəmizin deyil, həm də dünyanın təhsil və elm sahəsində aparıcı qüvvələrindən biri olmaq istəyini ifadə edir. Bu sənəd universitetimizin qlobal təhsil məkanında layiqli yer tutması üçün atılan addımların əsasını təşkil edir. Mingəçevir Dövlət Universiteti gələcək nəsillərin dünya vətəndaşı kimi yetişməsi üçün bütün imkanlarını səfərbər edir və bu yolda daim irəliləyir.

Mingəçevir Dövlət Universitetinin Beynəlmiləlləşmə siyasətini, habelə istiqamətlərini, vəzifələrini və əsas aparıcı meyarlarını özündə cəmləşdirən bu sənəd "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" nəzərə alınaraq və "Mingəçevir Dövlət Universiteti 2030: İnkişaf strategiyası"na əsaslanılaraq Beynəlxalq əlaqələr şöbəsi tərəfindən hazırlanmışdır.

# İstinadlar


1. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında
2. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında
3. MDU-2030_STRATEGIYA.pdf